

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 may 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 19 (3582)


# REGİONUN İNKİŞAF TƏMİNATÇILARI

## Türkiyə və Azərbaycanın təşəbbüsləri Avrasiyanın təhlükəsizliyinə və rifahına mühüm töhfə verir



Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə dövlətimizin başçısı İlham Əliyevin Türkiyədə dəniz üzərində inşa olunan möhtəşəm Rizə-Artvin Hava Limanının açılışında iştirakı Qafqazda iqtisadi, siyasi və hərbi güc kimi özünü təsdiq edən Azərbaycana olan inamın bariz nümunəsi, həm də iki qardaş ölkəni zaman-zaman siyasi arenalarda dışlamaq istəyənlərə bir mesaj idi.

Açılış zamanı çıxışında məzmununa və miqyasına görə beynəlxalq münasibətlər sistemində Azəbaycan-Türkiyə əlaqələrinin analoqunun olmadığını deyən Prezident İlham Əliyev 44 günlük Vətən savaşında Türkiyə dövlətinin, siyasi-hərbi rəhbərliyinin, ictimaiyyətinin Azərbaycanın haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməsini tarixin sınaqlarından çıxan, eyni zamanda daim dərinləşən münasibətlərinin əyani təzahürü olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyev İkinci Qarabağ savaşında Türk dünyasının öndərləri olan Heydər Əliyevin "Bir millət-iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarının bir daha öz təsdiqini tapdığını qeyd edib.

"Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bizə tarixi ədaləti bərpa etmək üçün güc, qüvvət verdi. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq".

Ötən ilin iyun ayında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması regionda strateji tərəfdaşlıq münasibətlərinin keyfiyyətcə yeni mərhələsinin təməlini qoydu. Güclənən iki qardaş dövlətin strateji müttəfiqliyi regionda sülhün və əmin-amanlığın etibarlı təminatçısı olmaqla yanaşı, həm də Avrasiyanın təhlükəsizliyinə və inkişafına mühüm töhfədir.

İki Prezident arasındakı möhkəm dostluq, Azərbaycan-Türkiyə qardaşlığı türk dünyasındakı əlaqələrin möhkəmlənməsinə də xidmət edir. Həyata keçirilən iqtisadi layihələr zamanı Orta Asiyanın türkdilli dövlətləri üçün yaranan geniş imkanlar bunu deməyə əsas verir.

Regionda sülhün və təhlükəsizliyin əbədi bərqərar olması üçün edilən real təşəbbüslərin təməlində dayanan Azərbaycan-Türkiyə qardaşlığı nikbin və təhlükəsiz gələcək deməkdir.

# Prezidentin Mətbuat Xidmətindən

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə ediblər. Söhbət zamanı əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

# Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki səfirliyində olub, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verib.*

*Dövlətimizin başçısı mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Ölkəmizin rəhbəri mayın 16-da Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib.*

*Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.*

# TƏHLÜKƏSİZLİK PRİORİTETDİR

## Türkiyənin nümayəndə heyəti ilə fikir mübadiləsi aparılıb



2022-ci il mayın 13-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Vilayət Eyvazov dövlət başçılarının siyasi iradəsi, qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin daha da dərinləşdiyini məmnunluqla vurğulayıb.

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, ölkəmizdə təhlükəsizlik sferasının da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdıran general-polkovnik V.Eyvazov Azərbaycan Polisinin, Daxili Qoşunların peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq mühafizə orqanı kimi öz yerini tutduğunu xüsusi qeyd edib.

İki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdıran nazir Vilayət Eyvazov rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv olaraq inkişafına daim önəm verdiyini bildirib. O, bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığını nəzərə çatdırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Seyfullah Hacımüftüoğlu iki ölkənin müvafiq qurumları arasındakı qarşılıqlı faydalı və səmərəli işbirliyini yüksək qiymətləndirib, ikitərəfli münasibətlərin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəyini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və dövlətlərimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinin və Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının nümayəndələri iştirak ediblər.

# Vətən eşqi məktəbində can verənlər...



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularından biri də baş çavuş Babayev Orxan Sədail oğludur. O, 1994-cü il dekabrın 24-də Astara rayonunun Kijəbə qəsəbəsinin Lovayın kəndində doğulub. Aslan Hidayətov adına tam orta məktəbin məzunudur.

2013-cü ilin yanvar ayında Orxan müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların Bakı şəhərinin Nərimanov rayonunda və Gəncə şəhərində yerləşən hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidməti dövründə kiçik komandirlər kursunu bitirib, "çavuş" hərbi rütbəsinədək yüksəlib. Özünün müraciəti əsasında 2014-cü ilin iyul ayının 11-dən etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Hacıqabul rayonundakı "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində baş atıcı vəzifəsinə təyin edilib. Sonra bu hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan və atıcı-qumbaraatan vəzifələrində xidmətini davam etdirib.

Hacıqabuldakı "N" saylı hərbi hissənin "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Anar Rizvanov: "Müharibə başlayanda şəxsi heyətimiz Bərdə rayonundakı "N" saylı hərbi hissəyə ezam olundu. Burada bir müddət ehtiyat qüvvə qismində qaldıqdan sonra oktyabrın 16-da Cəbrayıl rayonuna göndərildik. İşğaldan azad edilən Cəbrayıl şəhərinin, ətraf kəndlərin müdafiəsində dayanıb, hərbi obyektlərin düşmənin diversiya-kəşfiyyat qruplarının təxribatlarından mühafizəsini təşkil etdik.

Oktyabrın 29-da Füzuli rayonu istiqamətindəki mövqelərdə cəmləşdik. Oktyabrın 31-də isə Hadrut qəsəbəsinə gəldik. Hadrutdan qruplarla Xocavənd və Xocalı rayonlarının ərazilərindən keçməklə Şuşa istiqamətində hərəkət etdik. Bu zaman düşmən müxtəlif çaplı silahlardan bizi atəşə tutdu. Noyabrın 2-də Şuşa şəhərinin ətrafına çatdıq. Düşmən Şuşa ətrafındakı mühüm mövqelərini itirdikdən sonra noyabrın 4-dən şəhər uğrunda həlledici döyüşlər başladı"...

Vətən müharibəsi iştirakçısı kapitan Ramin Rəhimov deyir ki, Orxanın son döyüşü Şuşanın təxminən 400-500 metr yaxınlığındakı mövqedə olub. Həmin yer qala divarları istiqamətindədir:

"Noyabrın 7-də günorta vaxtı erməni hərbi bölmələri müxtəlif növ artilleriya və zirehli texnikalardan Şuşa ətrafındakı mövqelərimizi atəşə tutublar. Bu döyüşdə Orxan ölümcül yaralandı. Döyüşçü yoldaşları köməyə çatanda artıq gec idi. Onun nəşi noyabrın 9-da döyüş meydanından çıxarıldı."

Şəhid hərbi qulluqçumuz Astara rayonunun Ojəkəran kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş O.Babayev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# PEŞƏKARLAR HƏYAT QURTARIR

## *Polisin psixoloji hazırlığı xidmətdə dönüş yaradır*







Nəsimi rayonunda intihar etmək istəyən gənci Rayon Mühafizə İdarəsinin əməkdaşları fikrindən daşındırıb, həyatını xilas ediblər.

Bir neçə gün əvvəl saat 20:00 radələrində Alı Mustafayev küçəsində 3-cü mikrorayon dairəsindəki körpüdən bir nəferin özünü atmaq istədiyini görən ərazidə xidmət aparan mülki mühafizə xidmətinin əməkdaşları **Kamil Muxtarlı, Seymur Vəliyev** və həmin vaxt xidməti yoxlayan **baş mühafizə inspektoru, polis leytenantı Cavid Ömərov** bu barədə dərhal Növbətçi Hissəyə məlumat verib.

Daha sonra hadisə yerinə ərazi üzrə xidmətdəki avtomarşrutun əməkdaşları, **polis baş serjantı Turan Səfərov və polis serjantı Kamal Abdullayev** çağırılıb. Polislər körpüdən atılmağa hazırlaşan gənclə psixoloji söhbət aparıb, özünü öldürmək istəyindən çəkindiriblər. Daha sonra mühafizə xidmətinin əməkdaşları onu ərazi üzrə Nəsimi RPİ 20-ci PB-yə təhvil veriblər.

Bölmədə aparılan araşdırmalar zamanı həmin şəxsin Sabirabad rayon sakini C.Səmədov olduğu müəyyən edilib. O, intihara cəhd etməsinə ailə məsələlərinin səbəb olduğunu deyib. İntiharın çıxış yolu olmadığını psixoloji söhbətlərdən sonra dərk etdiyini bildirən vətəndaş onu yanlış yoldan döndərmiş polislərə minnətdarlıq edib.

*R.Mehtiyev*

# "Şah"ı "mat" edənlər

**Bugünlərdə MDB ölkələrinin xüsusi təyinatlı təhsil müəssisələri arasında Rusiya Daxili İşlər Nazirliyinin Krasnodar Universitetinin yaradılmasının 45 illiyinə həsr olunmuş beynəlxalq onlayn şahmat turniri keçirilib.**

"Rapit Arena" sistemi üzrə baş tutan yarışda təhsil müəssisələrinin müəllim və kursantlarından ibarət beş komanda iştirak edib. Qalib komanda zəka sahiblərinin ayrı-ayrılıqda topladığı xalların cəminə görə müəyyən olunub.



Ağ-qara fiqurların mübarizəsində Azərbaycan DİN Polis Akademiyasının komandası 23 xalla I yeri tutub. Kursant Əli Əliyev isə şəxsi birincilikdə II yerə layiq görülüb.

**Akademiya rəisinin döyüş və xidməti hazırlıq üzrə müavini, polis polkovniki İlyas İsayev** Krasnodar Universitetinin göndərdiyi kubok və medalları komandamızın zəka sahiblərinə təqdim edərək onlara növbəti yarışlarda uğurlar arzulayıb.

*T.Əlizadə*

**İşğaldan azad olunmuş torpaqlara getmək üçün vətəndaşlar DİN-ə müraciət edirlər. Onların müraciətləri dinlənilir və lazımı köməklik göstərilir. Bu istiqamətdə regionlarda da müvafiq tədbirlər görülür.**



# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ HƏSSASLIQLA QARŞILANIR

Gəncə regional qrupumuzdan verilən məlumata görə, bugünlərdə **Kəlbəcər Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Haxverdi Əkbərov** şəhid Nəsirov Bəhram Əkbər oğlunun bacıları Mərcan Mirzəyeva və Maral Budaqovanı müraciətləri əsasında qəbul edib. Onların istəyi Kəlbəcərdə şəhid qardaşlarının məzarını ziyarət etmək olub.

Söhbət əsnasında RPŞ-nin rəisi, H.Əkbərov torpaqlarımızın işğaldan azad edilməsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə diqqət və qayğı göstərilməsini ölkə başçısı tərəfindən dövlətin bütün qurumları qarşısında ən ümdə vəzifə kimi qoyulduğunu deyib.

Artıq qayıdış prosesinin başlanıldığını, amma bunun müvafiq prosedurlar çərçivəsində həyata keçirildiyini diqqətə çatdıran H.Əkbərov vətəndaşların işğaldan azad olunmuş ərazilərə getmələri, eləcə də öz yaxınlarının, doğmalarının qəbrini ziyarət etmələri üçün aidiyyəti qurumlardan icazə alındıqdan sonra mümkünlüyünü bildirib.

*A.Nəcəfova,*
*E.Qasımov*

# "ÖYRƏNƏK, UŞAQLARI DA ÖYRƏDƏK!"

Yol hərəkəti qaydaları haqqında azyaşlıların məlumatlandırılması, küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin öyrədilməsi, eləcə də onların sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır.



Lənkəran regional qrupumuzdan verilən məlumata görə, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na uyğun vəzifələri yerinə yetirmək məqsədilə BDYPİ-nin və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə Lənkəran Şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzində "Öyrənək, uşaqları da öyrədək!" mövzusunda təlim keçirilib. Təlimdə polis əməkdaşları, Lənkəran və ətraf rayonların uşaq-gənclər inkişaf mərkəzlərinin direktorları, şöbə müdirləri, dərnək rəhbərləri iştirak ediblər.

İştirakçılara müasir üsullardan istifadə edilərək "İşıqfor", "Yolu keçmə qaydaları","Yol nişanları", "İctimai nəqliyyatda davranış qaydaları" və "Yol hərəkəti iştirakçıları" mövzusunda məşğələlər keçirilib, yol hərəkəti qaydalarını azyaşlılara öyrətməyin yolları və görüləcək işlər müzakirə olunub.

İki gün davam edən təlimdə iştirakçılara elektron variantda təlim materialları və sertifikatlar verilib.

# BİZƏ YAZIRLAR...

## *Müsbət ictimai rəyin formalaşması görülən işin nəticəsidir*

**Paytaxt sakini Müqamət Əliyev** cinayətkarlıqla qətiyyətli mübarizə aparan, ictimai asayişi ayıq-sayıq qoruyan və xidməti vəzifələrini layiqincə yerinə yetirən Azərbaycan Polisinin fəaliyyətini yüksək dəyərləndirir, çətin və şərəfli işlərində uğurlar diləyir.

**Vətən müharibəsi qazisi Rövşən Nəsibov** sənədlərini itirməsi ilə bağlı etdiyi müraciətə həssaslıqla yanaşıldığını, qısa zaman kəsiyində tapıldığını yazır və Qaradağ RPİ 10-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Ağsu rayon sakini Simranə Cümşüdlü** Şuşa şəhərinə səfər etdikləri zaman polis əməkdaşlarının onlara göstərdikləri diqqət və qayğını yüksək dəyərləndirir.

Gədəbəy Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonda yaşayan şəhid ailələrinə yüksək diqqət və qayğı göstərildiyini qeyd edən **Gədəbəy rayon sakini Rəsul Allahverdiyev** bu nəcib işin artıq bir ənənə halını aldığını vurğulayır.

**Vətəndaş Mehriban Rəhimova və sosial şəbəkə izləyicimiz Cahid Şükürov** onlara dəyən maddi ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinin və Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürlərini bildirirlər.

**Sumqayıt şəhər sakini Günay Sadıqova** hüquqlarının bərpa olunmasında ona göstərilən köməyə görə polisin fəaliyyətindən məmnunluğunu ifadə edir.

**Siyəzən şəhər sakini Raman Sədrəddinov** elektron müraciətində ölkəmizdəki ictimai sabitliyin təmin olunmasında, cinayətkarlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizədə Azərbaycan Polisinin gərgin xidmətinə diqqət çəkir.

**"Damla" İctimai Birliyinin sədri Nigar Abdullayeva** DİN rəhbərliyinə ünvanladığı məktubda vaxtında yetişərək obyektlərinin su basmasının qarşısını almaqda əsl peşəkarlıq nümayiş etdirdiklərinə görə Binəqədi Rayon Mühafizə İdarəsinin əməkdaşlarına təşəkkür edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# NARKOTİKDƏN UZAQ OL, HƏYATI SAĞLAM YAŞA!



"Cari ilin 4 ayı ərzində qanunsuz dövriyyədən 26 kq. 674.996 qram narkotik vasitə çıxarılıb, 162 nəfər şübhəli şəxs qismində saxlanılıb". Bu fikirlər Suraxanı rayonundakı 114, 285, 154, 97, 275, 327, 226 və 280 nömrəli tam orta məktəblərdə eləcə də Gənclər mərkəzində Suraxanı Rayon Polis İdarəsinin təşkilatçılığı ilə "Narkotikə yox deyək!" mövzusunda keçirilən silsilə tədbirlərdə səsləndirilib.

**Suraxanı Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Süleyman Neymətov** gənclərimizin sağlamlığını və həyatını ciddi təhlükə altına alan, gələcəyimizi məhvə sürükləyən narkotik vasitələrin satışı və istifadəsinə qarşı aparılan qətiyyətli mübarizə tədbirlərindən söz



açıb. Bildirilib ki, sağlamlığa ciddi zərər vurmaqla yanaşı mənəvi dəyərləri sarsıdaraq cinayətlərə yol açan narkomanlığa qarşı hər birimiz barışmaz mövqe tutaraq birgə mübarizə aparmalıyıq. Qeyd olunub ki, zərərli vərdişlərdən uzaq durmaq üçün gənclərin, yeniyetmələrin sağlam həyat tərzinə idmana, təhsilə daha çox vaxt ayırmalarına nəzarət gücləndirilməlidir.

**Suraxanı RPİ NMB-nin rəisi, polis mayoru Anar İbrahimov** narkomaniya ilə mübarizədə polis-məktəb-valideyn əməkdaşlığının xüsusi önəm daşıdığına diqqət çəkib. O deyib ki, gələcəyimiz olan uşaqların sağlam, xoşbəxt gələcəyinə balta vuran zərərli vərdişlərə qarşı mübarizə aparmaqla əgər bir fərdin həyatını ölümün girdabından qurtara biliriksə, deməli səy, əzm göstərməyə, mübarizə aparmağa dəyər.

## Polisin bu çağırışı gələcəyin və gəncliyin xilasına yönəlib

❖❖❖

**Şəki rayon Asan Xidmət Mərkəzində** "Gənclər narkomaniyaya yox deyir!" mövzusunda çıxış edən **ŞRPŞ-nin rəisi, polis polkovniki Azər Muradov** narkotik qəbul etmək təklifinə aldanan gənclərin çox vaxt narkomaniyanın təhlükəliliyi haqqında məlumatlı olmamalarını, qısa zamanda bələnin əsirinə çevrildiklərini və bu üzdən də cinayətə meyilli olduqlarını diqqətə çatdırıb. O, bəlaya düçar olanların müalicədən sonra yenidən sağlam həyata adaptasiya olunmasında cəmiyyətin rolunun vacibliyini vurğulayıb.

**Daha bir maarifləndirmə tədbiri Göyçay rayonunda keçirilib. Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə** Dövlət İdarəetmə və Texnologiya Kollecində baş tutan görüşdə çıxış edən **RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Abbas Paşa** ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat verib.

Görüşlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində anoloji tədbirlər Astara, Biləsuvar, Mingəçevir, Cəlilabad, Salyan, Tərtər, Yevlax və Qubadlı rayon polis şöbələrinin təşkilatçılığı ilə də keçirilib.**

# ROMAN KİMİ MƏKTUB

Xalqımızın milli mənliyinin qorunmasında Azərbaycan Polisinin tarixi rolu barədə, bəlkə də, çoxunun məlumatı yoxdur. Sovet imperiyası dönəmində belə milis milli mahiyyətini qoruyub saxlaya, cinayətkar qəsdlərə sipər olduğu kimi, millətimizin dərdlərinə də məlhəm ola bilmişdi. Ötənlərə boylananda tariximizdə, hətta ədəbiyyatımızda bunun izləri aşkar görünür. Polisin bu şanlı keçmişi ayrı-ayrı fərdlərin sayəsində yazılıb, yaşanıb və bu gün varislərin timsalında davam edir bu epopeya.

Necə deyərlər, köklər budaqlara həyat verib, budaqlar da köklərə borclu qalmır.

Bugünlərdə redaksiyamıza Füzuli rayonunun Kürdmahmudlu kənd sakini Akif Qayıbovun adından daxil olan məktub bizə həm o keçmişdən soraq verdi, həm də damarlarında millətinə, dövlətinə sədaqətlə bağlı olan ataların, qardaşların qanını daşıyanların bu gün də sıralarımızda olduğunu yada salıb, qürurlandırdı.

O, yazır ki, atası xalq qəhrəmanı Rəşid Qayıbov 1917-ci illərdə öz dəstəsi ilə ermənilərə qarşı döyüşüb, Dərələyəz, Qarakilsə, Sisyan və Qarabağ mahalında elimizi-obamızı mənfur düşməndən qoruyub. Elə buna görə sovetlər dönəmində atası millətçilikdə günahlandırılıb, təqib olunub. Lakin ulu öndər Heydər Əliyev Füzuli rayonunda zəhmətkeşlərlə görüşü zamanı onu qəbul edərək dinləyib və bundan sonra bütün təqiblərin qarşısı alınıb.



Bu həmin Rəşid Qayıbovdur ki, görkəmli yazıçı İlyas Əfəndiyev onun haqqında "Üçatılan" romanını yazıb. O, romanın qəhrəmanı, adı Ərşad kimi qeyd olunan obrazın prototipidir. Ərşad, yəni Rəşid bir gün eşidir ki, erməni quldurları Zəngəzur və Qarabağda azərbaycanlı ailələrə zülm edir, qadınların belinə qaynar samovar bağlayır, körpə uşaqları tonqalda yandırırlar. Buna dözməyib əmisi, qaçaq Kərbəlayi Əsəddən yadigar qalmış üçatılanı götürərək öz dəstəsi ilə ermənilərə qarşı mübarizə aparmağa başlayır, qisas alır və bundan sonra ermənilər müsəlman obalarına hücum etməkdən çəkinirlər.



Köçəri Qayıbov

Məktub müəllifinin qardaşı Köçəri Qayıbov isə milis orqanlarında xidmət edib. Hansı ki, biz həmçinin onun timsalında milisin içində milli duyğularla çulğalanmış əməkdaşların olduğunu deyə bilirik.

Məsələ ondadır ki, 1987-ci ildə ermənilər Laçın rayonunda bir azərbaycanlı ailəni avtomobil qarışıq uçurumdan atırlar. Həmin vaxt hadisə yerinə ilk çatmış Laçın rayonunda xidmət edən Köçəri Qayıbov cinayəti törətmiş ermənilərin tutulmasını və qanun qarşısında cavab verməl追ərini təmin edir. Ancaq bu hadisədən az sonra milis əməkdaşı şübhəli avtomobil qəzasında dünyasını dəyişir.

Bu, adi talesizlik idimi, yoxsa Qara Rəşiddən alınan qisasmı, bilinmir. Lakin taleyin təsəllıedici cəhəti də var; erməni faşizminə qarşı dirənən ailənin gənc davamçıları bu gün də daxili işlər orqanlarında xidmət edir. **Polis mayoru Samir Qayıbov Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin rəisi, digər qardaşı, polis polkovnik-leytenantı Elşən Qayıbov isə Beyləqan Rayonlararası Mühafizə Şöbəsinin rəisidir.**

Dedik axı, nə köklər budaqlara, nə də budaqlar köklərə borclu qalmır.

***R.Mehtiyev***

# Polislər qalib gəldi



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Şəki rayonu ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlar arasında futzal üzrə rayon birinciliyi keçirilib.**

Ötən ayın 15-dən start götürən yarışda birincilik uğrunda ümumilikdə 20 komanda mübarizə aparıb. Qrup mərhələsində yarışan komandalardan daha yaxşı nəticə əldə edənlər növbəti mərhələdə mübarizə aparmaq hüququ əldə ediblər. Şəhər Rayon Polis Şöbəsinin komandası da bu mərhələlərdə yüksək nəticə əldə edərək finala vəsiqə qazanıb. Şəki Olimpiya İdman Kompleksində təşkil edilən turnirin final oyununda polis əməkdaşları ilə məhdud məsuliyyətli cəmiyyətlərdən (MMC) birinin komandası qarşılaşıb. Polislər gərgin mübarizədən qalib ayrılıblar.



Yarışda ilk dörd yeri tutan komandalar Şəki rayon Gənclər və İdman İdarəsi tərəfindən kubok, diplom, medallar və digər hədiyyələrlə mükafatlandırılıblar.

# STEND ATICILARI GÜCLƏRİNİ SINADI




Bakı Atıcılıq Mərkəzində stend atıcılığı üzrə keçirilən ölkə kuboku yarışı başa çatıb. Mayın 12-dən başlayan 4 günlük yarışlarda müxtəlif bölgələrimizdən olan gənclər stend atıcılığı üzrə ölkə kubokunu qazanmaq uğrunda mübarizə aparıblar. Çempionat stend atıcılığının səngər və dairəvi növlərində - kişilər, qadınlar və qarışıq komanda kateqoriyalarında keçirilib. Yarışda 15 idmançı müxtəlif kateqoriyalarda fərqlənərək, diplom və təltiflərlə mükafatlandırılıb.



Yekun nəticələrə görə, fərdi yarışlarda kişilər arasında səngər stendi üzrə Əlimirzə Quliyev, dairəvi stend üzrə Niyaz Ağazadə, qarışıq komanda növündə isə səngər stendi üzrə Əlimirzə Quliyev - Şəfəq Əmrahova, dairəvi stend üzrə isə Fuad Qurbanov-Nurlana Cəfərova birinci yeri tutublar.

Qadınlar arasında isə səngər stendi üzrə Aydan Camalova, dairəvi stend üzrə Nurlana Cəfərova qalib olublar.

**Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu, polis polkovniki Zemfira Meftahətdinova** ölkə kuboku yarışlarının nəticələrini şərh edərkən qeyd edib ki, həm güllə, həm də stend atıcılığı üzrə respublika çempionatı atıcılıq idmanında yeni nəslin yetişməsi ilə bağlı böyük ümidlər verir: "Atıcılığın özünəməxsus xüsusiyyətlərindən biri də odur ki, bu növlə uşaq yaşlarından məşğul olmaq lazım deyil. Belə üstünlük bizə imkan verir ki, yeniyetmələrimiz arasında bu istiqamətdə istedad və bacarığı olanları aşkarlayıb, ölkəmizi beynəlxalq yarışlarda təmsil etməyə hazırlayaq".

Qeyd edək ki, turnirdə ümumilikdə 41 idmançı mübarizə aparıb. Respublika Kuboku yarışlarının qaliblərindən ibarət komanda cari il mayın 27-dən iyunun 7-dək Bakı Atıcılıq Mərkəzində keçiriləcək Dünya kuboku yarışlarında təmsil edəcək.

# DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ !

## 2022-ci il üçün DİN-in Polis Akademiyasında fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) qəbula dair elan

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na, 2022-ci il 5 mart tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na və Azərbaycan Respublikası DİN-in Kollegiyasının 2021-ci il 26 noyabr tarixli Q17-001-21 nömrəli Qərarına əsasən Nazirliyin Polis Akademiyasında 2022-ci il üçün doktoranturaya (dissertanturaya) qəbul elan edir.

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün müəyyən edilmiş müddətdə əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

Raporta aşağıdakı sənədlər əlavə edilir:

1. şəxsiyyət vəsiqəsinin surəti;
2. tərcümeyi-hal;
3. ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
4. çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat.

İmtahanın məzmunu (proqramı) Akademiyanın rəsmi saytında yerləşdiriləcək.

Qəbulla bağlı DİN-ə müraciətin və imtahanın keçirilməsi tarixləri barədə əlavə məlumat veriləcək.

**Daha ətraflı məlumatı Polis Akademiyasının - (012) 454-12-78 və ya 454-13-85 nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.**

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Tibb İdarəsinin müalicə-profilaktika müəssisələrində vakant olan tibb bacısı (sıravi və kiçik rəis heyəti) vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Müsabiqədə Azərbaycan Respublikasının dövlət tibb orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, boyu 160 santimetrdən aşağı, yaşı 25-dən yuxarı olmayan, ixtisası üzrə azı 3 il praktiki təcrübəyə malik, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri olan qadın cinsli vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci ilin may ayının 16-dan iyun ayının 16-dək **www.mia.gov.az** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər şəxsiyyət vəsiqəsi, təhsil haqqında diplom və əmək kitabçasını təqdim etməlidirlər.

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59**
**(012) 590-20-94**




**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının son 20 gün ərzində keçirdikləri silsilə əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil cinayətkar dəstənin daha 57 üzvü saxlanılıb. Araşdırma zamanı onlardan 9 nəfərin qaçaqmalçılıq yolu ilə gətirilən külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitəni ölkə ərazisində qəbul edərək satışını təşkil etmələri, 48 nəfərin isə sosial şəbəkələr vasitəsi ilə narkokuryerliyə cəlb olunmaları müəyyən edilib. Həmin şəxslərdən ümumilikdə 120 kiloqram narkotik vasitə və psixotrop maddə, həmçinin 4360 ədəd psixotrop tərkibli həb aşkar olunub.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmələrin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

◆◆◆

**Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə** H.Seyidzadə küçəsində yerləşən çay evlərinin birində Bakı şəhər sakini A.Məmmədovun 420 manatının quldurluq yolu ilə talanması barədə müraciət daxil olmuşdur. Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Astara rayon sakini H.Teymurov müəyyən edilərək saxlanılmışdır.

**Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinə** Pirşağı qəsəbəsi ərazisindəki mağazaların birindən 11.641 manatın oğurlanması barədə məlumat daxil olmuşdur. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini E.Sultanov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Ocaqlı kəndi ərazisində Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş R.Rzayevin idarə etdiyi "VAZ-2121" markalı avtomobil nəzarət qaydasında saxlanılmışdır. Avtomobilə baxış zamanı oradan 4 kiloqrama yaxın heroin, 2 kiloqram 610 qram marixuana və "AKS" markalı avtomat silah, 1 ədəd avtomat qundağı, patron darağı və 4 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Şəki ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 12-də rayon sakinləri Ə.Məmmədovun 10 min manat, X.Qasımlının 8 min manat və A.Babayevin 4 min 100 manatını dələduzluq yolu ilə talamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş R.Məmmədov saxlanılmışdır.




## Yaddaşımızı necə gücləndirək?

Yaddaşı gücləndirmək üçün bunlara diqqət etməliyik.

**1.** Əgər siz yaddaşsızlıqdan şikayətlənirsinizsə, öncə qan analizi verin. Çünki qan azlığı yaddaş problemi yaradır. Qan azlığını aradan qaldırmaq üçün 1 kiloqram qırmızı çuğunduru 1 kiloqram balın içinə doğrayıb qarışdırın. Bir həftə gözləyin. Sonra süzün və gündə 3 dəfə yeməkdən əvvəl 2 xörək qaşığı için.



**2.** Həddən artıq yemək beynimizə axan qanın azalmasına səbəb olur. Ona görə də acmamış yeməyin, doymamış yeməkdən durun. Həftədə 2 dəfə oruc tutmaq beynimizin qidalanmasını yaxşılaşdırır.

**3.** Gündə 2 stəkan kök şirəsi, 2 dəfə bal şərbəti içmək də yaddaşı gücləndirir.

**4.** Bir qram zəfəranı yarım stəkan isti (qaynar yox) suya qarışdırıb 12 saat gözləyin. Sonra onun üstünə süd əlavə edib səhər yuxudan duran kimi için. Bu qarışığı içdikdən yarım saat sonra yemək yeyilməsi məsləhətdir.

**5.** Yaddaş məcunu: Zəncəfil 40 qram, Qinko biloba 40 qram, Çiçək tozu 40 qram, Yapon Saforası meyvəsi 40 qram, Jenşen kökü 40 qram, Bal 1 kiloqram. Bitkilər qurudulmuş olmalı, toz formasına salınmalı, bal ilə yaxşı-yaxşı qarışdırılmalıdır. Böyüklər gündə 3 dəfə yeməkdən əvvəl 1 çay qaşığı, uşaqlar isə yarım çay qaşığı içməlidirlər.

*Natiq Abdullayev,*
*polis mayoru*




# Təqvim tarixə dönəndə...

İki il öncə yenidən yazdıq Vətən tarixini. İndi bütün dünyanın gözü önünə XXI əsrin möcüzəsi deyəndə Şuşanın ətrafını saran sıldırım qayalara Azərbaycan əsgərinin yalın əllə dırmanması gəlir.




Məğlub və boynu bükük Ermənistana "qorxma, biz səninləyik" deyənlərin, torpaqlarımızda daim qan tökülməsini, onun parça-parça bölünməsini istəyənlərin heyrəti başadüşüləndir.

"Necə oldu ki, Azərbaycan qalib gəldi?",-deyənlərə bir cavabımız var: siz unutmuşdunuz ki, biz qan yaddaşımızı unutmamışıq. Siz unutmuşdunuz ki, hər ilin fevralında bizim Xocalı adlı yaramızdan qan sızır. Siz unutmuşdunuz ki, biz dünyanın heç bir yerində Şuşadan böyük zirvəyə çıxa bilmirdik. Dağ görəndə üreyimiz dağlanırdı. Siz unutmuşdunuz ki, "mən niyə qaçqınam, mən niyə köçkünəm?" çadıra Vətən deyən balalarımıza canımızı dişimizə tutub millət dərsi keçdik. Siz unutdunuz ki, əsgəri Mübariz, generalı Polad Həşimov olan bir millətin Vətən sevdası, Qarabağ yanğısı heç vaxt sönməz...




Biz Şuşanın, Laçının işğal günlərini-1992-ci il mayın səkkizini və mayın on səkkizini təqvimlərdən bundan sonra da silməyəcəyik. Doğma yurdların azadlığına qovuşduğu bu tarixlərlə-2020-ci il noyabrın 8-i və dekabrın 1-i ilə hər zaman qürur duyacağıq.

*Hafiz Təmirov*

## Bunları bilirdinizmi?

Yəqin hamı üzərində lombard yazısı olan yerləri görüb, çox adam da onların girov (qızıl, qiymətli əşya, ev, avtomobil) qarşılığında faizlə, borca pul verdiklərini də bilir. Burası aydındır.

Bəs lombard sözü nə deməkdir? "Girov qoy - pul al" prinsipli müəssisələr ilk dəfə XV əsrdə Fransada, XI Lüdovikin dövründə yaranmağa başladılar. XV əsrin sonlarında isə İtaliya, Almaniya və digər Avropa ölkələrinə yayıldılar. Bu sələmçilər Fransaya İtaliyadan gəlmişdilər. Coğrafiyadan xəbəri olan izləyicilər yaxşı bilirlər ki, İtaliyada mərkəzi şəhəri Milan olan Lombardiya adlı bölgə var. Sələmçilər Lombardiya sakinləri olduqları üçün bu sistemin adı lombard qalıb.

*"Polis"*

## STATİSTİKA

### Kriminal icmal

- Mayın 11-dən 18-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 377 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 101 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 479, o cümlədən borclu şəxs qismində axtarışda olan 380 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 14 nəfər ölmüş, 11 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 176, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik